**Süleymanov M.S.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.79.93-95**
**UOT: 341**

## Hakimləri kim mühakimə edəcək?

**Xülasə**: Biz çoxdan simvolik səlahiyyətlərə malik olan millətlərüstü strukturlar dövrünün sona çatmasının şahidi oluruq. Beynəlxalq əməkdaşlığın növbəti formatının necə olacağını proqnozlaşdırmaq çətindir, lakin bir şey artıq aydındır: BMT və ÜST kimi təşkilatlar əvvəlki əhəmiyyətini itirir və bu prosesi artıq geri qaytarmaq mümkün deyil.

**Açar sözlər**: Beynəlxalq Cinayət Məhkəməsi; Roma Statutu; BMT-nın Beynəlxalq Məhkəməsi; ÜST; Ukrayna; Rusiya.

**Suleymanov M.S.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.79.93-95**
**UDC: 341**

## Who will be judge the judges?

**Abstract:** We are witnessing the end of the era of supranational structures that have long been endowed with symbolic authority. It is difficult to predict what the next format of international co-operation will be, but one thing is already clear: organizations such as the UN and WHO are losing their former significance, and this process can no longer be reversed.

**Keywords:** International Criminal Court, Rome Statute, UN International Court of Justice, WHO, Ukraine, Russia.

Macarıstan parlamenti ölkənin Beynəlxalq Cinayət Məhkəməsini (BCM) tərk etməsi ilə bağlı qanun layihəsini təsdiqlədi.

Qanun layihəsi parlamentə aprelin 3-də daxil olmuşdu. Həmin vaxt Macarıstan XİN-in rəhbəri Peter Siyyarto bildirmişdi ki, BCM siyasiləşmiş təşkilatdır və ayrı-ayrı dövlətlər ondan öz məqsədləri üçün istifadə edirlər [1].

Macarıstanın BCM-i tərk etməklə bağlı qərarı üçün təkan rolunu İsrailin Baş naziri Binyamin Netanyahunun həbsi üçün orderin verilməsi oynadı. Həmin orderdən sonra rəsmi Budapeşt "BCM təkcə özünü yox, bütün beynəlxalq sistemi nüfuzdan salır" kimi açıqlama verdi. Netanyahu isə heç bir maneə ilə rastlaşmadan Budapeştə səfər etdi.

Beynəlxalq Cinayət Məhkəməsi 1998-ci ildə yaradılıb. Onun hüquqi əsasını 120 dövlətin imzaladığı Roma statutu təşkil edir. Məhkəmənin kompetensiyasına genosiddə, insanlıq əleyhinə və hərbi ciayətlərdə iştirak etmiş fiziki şəxslərin təqib olunması daxildir. Cəza növü kimi məhz həbs cəzası nəzərdə tutulur [2].

İndiyədək BCM əsasən Afrika ölkələrindəki münaqişələrlə məşğul olub. Onun mühakimə edib məhbəsə yolladığı azsaylı şəxslər də Konqo, Mali, MAR və Sudan münaqişələrinin iştirakçılarıdır.

---

♦**Süleymanov Məmməd Süleyman oglu** – publisist (Azərbaycan). E-mail: sandinist17@gmail.com

♦**Suleymanov Mammad Suleyman oglu** – publicist (Azerbaijan). E-mail: sandinist17@gmail.com

Ukraynadakı müharibə məhkəmənin diqqətini Rusiyaya yönəltdi - həbsinə order verilənlər arasında Vladimir Putin və Sergey Şoyqu da var [3; 4]. Son bir ildə məhkəmənin təqib obyektinə İsrail rəhbərliyi də əlavə olundu. Ancaq təqib olunanların böyük əksəriyyətinin azadlıqda olması onu sübut edir ki, BCM-nin orderləri çox vaxt formal xarakter daşıyır və onunla hesablaşmırlar. Xüsusən də Haaqa məhkəməsi varkən daha bir məhkəmənin yaradılması sonadək anlaşılan deyil. Sanki bu, çoxsaylı bürokratlar üçün iş yeri kimi düşünülüb. Ya da sadəcə siyasi təsir aləti kimi.

ABŞ, Çin, İsrail, Hindistan və İran kimi dövlətlər prinsipial olaraq BCM ideyasını qəbul etmirlər. Onların nəzərində BCM dövlətlərin suverenliyini məhdudlaşdırır. Rusiya bu qurumu ötən il tərk edib. Daha əvvəl isə Afrika dövlətlərindən Burundi, CAR və Qambiya BCM-lə əlaqələri kəsib. Genosidə məruz qalmış Burundinin genosidləri araşdıran məhkəməyə arxa çevirməsi bir fakt olaraq BCM-nin obyektivliyini şübhə altına salır.

Hazırda MDB ölkələrindən Qırğızıstan və Özbəkistan Roma statutunu imzalayıb, ancaq ratifikasiya etməyib, Azərbaycan, Belarus, Türkmənistan və Qazaxıstan isə statutu ümumiyyətlə imzalamayıblar [5].

Macarıstanın BCM-i tərk etməsi son illər davam edən transmilli siyasi təşkilatların erasının sona çatması tendensiyasının növbəti epizodudur. Yeni dünya düzəninin formalaşdığı bir dövrdə əksəriyyəti ölü doğulmuş, ya da sadəcə siyasi təzyiq aləti kimi düşünülmüş bu bürokratik qurumların gərəksizliyi xüsusilə çılpaq şəkildə özünü göstərir. Onlar prinsipial məsələlərdə gücsüzdürlər, lokal münaqişələrdə özlərinə sərf etməyən personajları cəzalandırmağa çalışırlar, sonunda isə bəlli olur ki, söhbət sadəcə nəhəng büdcəyə malik bürokratik strukturlardan gedir.

Hətta BMT-nin əhəmiyyətsizliyi günbəgün özünü qabarıq göstərirsə, 2000-ci illərin qaranlığında peyda olan süni təşkilatlardan ümumiyyətlə söz açmağa dəyməz. Yaxud milli dövlətləri özünün itaəti altına almaq kimi maniakal ideyaya inanan (və çox heyf ki, koronakratiya vaxtı buna nail ola bilən) Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) öz missiyasını çoxdan başa vurduğu, indi isə yalnız neqativ rol oynadığı iddiası heç də əsassız görünmür. Nəhəng büdcəsi olan bu transmilli qurum hazırda yalnız konkret elitaların əmr quluna çevrilib. ABŞ-ın bu qurumu tərk etməsi və üzvlük haqlarını ödəməməsindən sonra şişirdilmiş ştata və maaş cədvəlinə malik ÜST kadr ixtisarlarına gedir. Və əgər bir gün o, ümmumiyyətlə mövcudluğunu dayandırsa dünya bunu ya hiss etməyəcək, ya da daha rahat nəfəs alacaq.

BCM-nin üzvlərini itirməsi də mövcud trendin bir hissəsidir. Üstəlik get-gedə daha çox adam sakramental “Bəs hakimlər kimdir” sualını verir. Mayın ortalarında BCM-nin Baş prokuroru Kərim Xan qeyri-müəyyən müddətə öz vəzifəsini tərk etdi - onun barəsində seksual xarakterli əməllərlə bağlı araşdırmalar davam edir. Baş prokurorun bu cür reputasiyası da quruma başucalığı gətirmir.

Macarıstan parlamentinin qərarından sonra isə bir çoxları BCM-nin “sonunun əvvəli”ndən danışırlar. Ancaq ümumi götürdükdə söhbət təkcə BCM-nin sonundan getmir. Nə vaxtsa sakral haləyə bürünmüş dövlətüstü qurumların zamanı bitir. Bəziləri nə vaxtsa mütərəqqi rol oynamış bu təşkilatların yerinə hansı formatın gələcəyini söyləmək çətindir, ancaq BMT, ÜST başda olmaqla bu təşkilatların qeyri-funksionallığı dönməz xarakter alıb...

**Biblioqrafiya**

1. Парламент проголосовал за выход Венгрии из МУС. 20.05.2025 [Elektron resurs]. URL: https://www.dw.com/ru/parlament-progolosoval-za-vyhod-vengrii-iz-mezdunarodnogo-ugolovnogo-suda/a-72606538

2. International Criminal Court website. [Elektron resurs]. URL: https://www.icc-cpi.int
3. Международный суд в Гааге выдал ордер на арест Владимира Путина [Elektron resurs]. URL: https://www.bbc.com/russian/news-64990654
4. Международный уголовный суд выдал ордеры на арест Шойгу и Герасимова [Elektron resurs]. URL: https://www.bbc.com/russian/articles/cy008y2nny1o
5. Rome Statue of the International Criminal Court. UN OHCHR web site: https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/rome-statute-international-criminal-court

***Məqalə daxil olmuşdur:*** *06 iyun 2025-ci il*
***Çapa qəbul edilmişdir:*** *19 iyun 2025-ci il*

**References**

1. Parliament voted for Hungary's withdrawal from the ICC. 20.05.2025. Available at: https://www.dw.com/ru/parlament-progolosoval-za-vyhod-vengrii-iz-mezdunarodnogo-ugolovnogo-suda/a-72606538 (in Russian)
2. International Criminal Court website. Available at: https://www.icc-cpi.int
3. The International Court in The Hague has issued an arrest warrant for Vladimir Putin. Available at: https://www.bbc.com/russian/news-64990654 (in Russian).
4. The International Criminal Court has issued arrest warrants for Shoigu and Gerasimov. Available at: https://www.bbc.com/russian/articles/cy008y2nny1o (in Russian).

***The article was submitted:*** *2025 June 06*
***Accepted for publication:*** *2025 June 19*

**Сулейманов М.С.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.79.92-94**
**УДК: 341**

**Кто будет судить судей?**

**Аннотация:** Мы становимся свидетелями заката эпохи наднациональных структур, долгое время наделенных символическим авторитетом. Трудно предсказать, каким будет следующий формат международного взаимодействия, однако уже сегодня ясно одно: такие организации, как ООН и ВОЗ, теряют былую значимость, и этот процесс уже невозможно обратить вспять.

**Ключевые слова:** Международный уголовный суд; Римский статут; Международный суд ООН; ВОЗ; Украина; Россия.

***Дата поступления:*** *06 июня 2025 г.*
***Дата принятия в печать:*** *19 июня 2025 г.*

♦ **Сулейманов Мамед Сулейман оглы** – публицист (Азербайджан). E-mail: sandinist17@gmail.com